Ordu və cəmiyyət

# "Aprel zəfəri Böyük Qələbənin paroludur"

***- Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi... Bəs İsa müəllim sonda özünü necə təqdim edərdi?***

- Sadəcə, vətəndaş İsa Həbibbəyli desək, bəs edər. Söhbətimizə başlamazdan öncə, qəzetiniz vasitəsilə Silahlı Qüvvələrimizin bütün əsgər və zabitlərinin qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününü, Yeni il bayramını təbrik edir, onlara cansağlığı, uzun ömür arzulayıram.

***- Ötən əsrin sonlarında Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk illərdə Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan ədəbi mühitin nümayəndələri daşnak tör-töküntüləri olan erməni ideoloqlarının - Aqambekyanın, Silva Kaputikyanın, Zori Balayanın şovinist çıxışlarına tutarlı cavabları ilə ədəbiyyat tariximizdə yer tutdular. Və beləcə, Azərbaycanın istiqlal dövrünün ədəbiyyatı təşəkkül tapdı...***

- Heç şübhəsiz, Azərbaycan milli istiqlal ədəbiyyatının inkişafında Dağlıq Qarabağ uğrunda mübarizə hərəkatı mühüm yer tutur. Dağlıq Qarabağ hadisələri Azərbaycan ədəbiyyatındakı milli istiqlal ideyalarının açıq şəkildə, bütün enerjisi ilə meydana çıxmasına, malik olduğu qüvvətlə səslənməsinə böyük təkan verdi. Azərbaycanda milli istiqlal ədəbiyyatı XX əsrin əvvəllərində tam formalaşmışdır. XIX əsrin axırlarından başlanan azərbaycançılıq düşüncəsi böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin simasında milli istiqlalçılıq miqyasına çıxarılmışdır. Cəlil Məmmədquluzadə Azərbaycan milli istiqlal ədəbiyyatının sərkərdəsidir. "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının çoxcildlik milli istiqlal kitabıdır. Üzeyir Hacıbəyovun məşhur "Koroğlu" operası Azərbaycan incəsənətinin mükəmməl milli qəhrəmanlıq uvertürasıdır. Sovet dövründə Azərbaycan ədəbiyyatında tərənnüm olunan vətənpərvərlik ideyaları, əslində, sərt Sovet rejimi çərçivəsində mənalandırılan azadlıq arzularını ifadə edirdi. Ana dili uğrunda ədəbiyyatın apardığı mübarizə istiqlalçılıq ideyasının cövhərini təşkil edirdi. Xalq şairləri Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz kimi qüdrətli sənətkarların əsərləri xalqımızı milli azadlıq mübarizəsinə hazırlamışdır. Bu sahədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci mərhələsində ölkəmizdə milli-mənəvi dəyərləri və müstəqillik düşüncəsini inkişaf etdirmək sahəsində misilsiz xidmətləri böyük rol oynamışdır. Əslində, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan cəmiyyətində XX əsrin 70-ci illərindən etibarən qüvvətlənməkdə davam edən milli istiqlalçılıq məfkurəsinin banisidir. Ötən əsrin 80-ci illərin axırları - 90-cı illərin əvvəllərində Dağlıq Qarabağ münaqişəsinin başlanğıcında kəskin şəkildə milli azadlıq mövqeyi ifadə edən ədəbiyyatın möhkəm bünövrəsi var idi. Söylədiyiniz kimi, radikal erməni şovinist fikrinin daşıyıcıları olan balayanların torpaq iddiası avantürasına qarşı Azərbaycan yazıçıları tarixi gerçəkliyi ifadə edən sərt mövqe nümayiş etdirmişlər.

***- Azərbaycanın qurtuluş tarixi ümummilli liderimiz Heydər Əliyevin doğma yurdu Naxçıvana qayıdışı ilə başladı. O zaman Muxtar Respublikanın elm, təhsil sahəsində çalışan aparıcı ziyalılardan biri olaraq həmin dövrü necə xatırlayırsınız?***

*Rubrikamızın qonağı millət vəkili, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəylidir.*



- Xalqımızın ümummilli lideri Heydər Əliyevin mübarizələrlə zəngin olan tərcümeyi-halında Naxçıvan dövrü xüsusi yer tutur. Bu, dahi şəxsiyyətin mənalı ömrünün Sovet imperiyasının dağılması ilə ölkəmizdə müstəqil dövlətçiliyin qurulması arasındakı mühüm bir mərhələdir. Bu, görkəmli dövlət xadimi Heydər Əliyevin XX əsrin 70-ci illərindən Azərbaycanda müstəqil dövlətçilik uğrunda apardığı mübarizəsinin qiymətli və parlaq bir yekunudur. Əvvəla, Heydər Əliyevin taleyin hökmü ilə Naxçıvana qayıdışı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Ermənistanın təcavüzündən xilas edilməsində həlledici rol oynamışdır. İşğaldan xilas edilmiş Naxçıvan Ulu Öndərin müstəqil Azərbaycana böyük ərmağanıdır. Hələ Sovet hökuməti dağılmamış Azərbaycanın üçrəngli bayrağını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1991-ci il tarixli sessiyasında dövlət rəmzi kimi qəbul etdirməsi Ümummilli Liderimizin adı ilə bağlı olan təkraredilməz bir tarixi qəhrəmanlıq işidir. Sovet ordusu qoşunlarını Naxçıvan Muxtar Respublikasının ərazisindən qansız-qurbansız çıxartmağa nail olması və milli ordu yaratması da böyük xilaskarlıq missiyasının real faktıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi Heydər Əliyevin döyüş bölgələrində olması, səngərlərdə əsgərlərlə görüşləri, ərazi bütövlüyü haqqındakı ibrətamiz bəyanatları xalqımızın birlik və vətənpərvərlik hərəkatında əvəzsiz xidmətidir. Heydər Əliyevin müharibə şəraiti olmasına baxmayaraq, Naxçıvanda Hüseyn Cavidin 110 illik, Naxçıvan Dövlət Universitetinin 25 illik yubileylərini təntənəli şəkildə keçirməsi, torpaq islahatları aparması kimi hadisələr müstəqillik tariximizin şərəfli səhifələridir. Bunlar xalqımızda müstəqilliyin gələcəyinə böyük ümidlər, dərin inam yaratmışdır. Heydər Əliyev yolu - Azərbaycan xalqının qurtuluş və milli istiqlaliyyət yoludur.

***- Hansı ölkə öz tarixi əraziləri uğrunda, haqq işi uğrunda mübarizə aparırsa, o ölkənin müharibə ədəbiyyatı yaranır. Bəs Qarabağ mövzusu tarixi, ədəbi və elmi baxımdan yetərincə araşdırılıbmı?***

- Dünya təcrübəsində olduğu kimi, Azərbaycan ədəbiyyatında da müharibə ilk olaraq poeziyanın və publisistikanın gur səsini meydana çıxarmışdır. Digər ölkələrdə də müharibə səhnələrini əks etdirən geniş həcmli böyük ədəbiyyat bir qədər gec, proseslər tam dərk olunduqdan sonra yaranmışdır.

Azərbaycan ədəbiyyatında da XX əsrin 80-ci illərindən başlanan Qarabağ savaşının romanları XXI əsrdə yazılmışdır. Son illərdə ədəbiyyatımızda xeyli sayda romanlar meydana çıxmışdır. Əlbəttə, həmin iri həcmli bədii əsərlərin hamısını keyfiyyət baxımından eyniləşdirmək olmaz. Lakin ideya-bədii cəhətdən uğurlu əsərlər də yaranmaqdadır. Bununla belə, fikrimcə, müharibə mövzusu artıq bədii axtarışlar dövrünü yaşayıb arxada qoymuşdur. Prosesin bundan sonrakı mərhələsi Qarabağ müharibəsi və onun ətrafındakı hadisələrin əsl böyük romanını doğurmalıdır.

Azərbaycan elmində də Qarabağ mövzusu ön mövqedə dayanır. Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında yeni dövrün Qarabağnaməsi yaradılır. Tarix İnstitutunda Azərbaycan, ingilis və rus dillərində yazılmış "Qarabağ" kitabı beynəlxalq miqyasda yayılmışdır. Folklor İnstitutu artıq 10 cildlik "Qarabağ folkloru" antologiyasını tamamlamaq üzrədir. Ədəbiyyat İnstitutunda müxtəlif janrlar üzrə Qarabağ mövzusunun bədii həllinə həsr edilmiş elmi əsərlər yazılır, doktorluq və namizədlik dissertasiyaları müdafiə olunur. Bəzi universitetlər işğal olunmuş ərazilərimizdə Azərbaycan mədəniyyətinə qarşı ermənilər tərəfindən törədilmiş vandalizm hallarını əks etdirən əsərləri ictimaiyyətə çatdırmaqda davam edir. Milli Azərbaycan Tarixi Muzeyi "Qarabağ elektron portalı"nın geniş təqdimatını keçirmişdir. Düşünürəm ki, bütün bunlar Azərbaycan elminin daha dərindən, əsaslı şəkildə yeni və ümumiləşdirilmiş "Qarabağnamə"sini də meydana çıxaracaqdır.

***- Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün ordumuz yetərincə güclənib və dünyanın inkişaf etmiş orduları sırasındadır. Hər bir vətəndaşımızın qürur duyacağı ordumuz var. Yeri gəlmişkən, ordumuzun aprel zəfəri və onun cəmiyyətimizə təsiri barədə danışmağınızı istərdim...***

- Respublikamızın Prezidenti İlham Əliyev müstəqil Azərbaycan dövlətini böyük qətiyyətlə və inamla irəli aparır. Məqsədyönlü dövlət siyasəti ölkəmizdə cəmiyyət həyatının bütün sahələrinin hərtərəfli şəkildə inkişaf etdirilməsini təmin edir. Hazırda müstəqil Azərbaycan Respublikası son 25 il ərzində böyük inkişaf yolu keçmiş bir dövlətə çevrilmişdir. Ulu öndər Heydər Əliyev müstəqil dövlətimizdə ordu quruculuğunun banisidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə ən müasir hərbi texnika ilə təchiz edilmiş və milli ideya cəhətdən, vətənpərvərlik baxımından inkişaf etdirilmiş Azərbaycan Ordusunun böyük qurucusudur.

2016-cı ilin aprel döyüşləri Azərbaycan hərb tarixinin, istiqlal mübarizəsinin parlaq səhifəsidir. Aprel döyüşləri Azərbaycanda qalib ordunun yarandığını nümayiş etdirdi. Bu döyüşlər Azərbaycanda Böyük Qələbəyə dərin inam yaratdı. Bununla süni şəkildə yayılmış erməni mifi dağıdıldı, düşmənin gücsüzlüyü açıq-aşkar göründü. Bu döyüşlər Azərbaycan əsgərinin Ali Baş Komandana dərin sədaqətini nümayiş etdirdi. Aprel şəhidlərinin dəfn mərasimlərində xalq tərəfindən səslənən, şəhid ataları, anaları tərəfindən deyilən "Vətən sağ olsun!" sözləri ordu ilə xalqın birliyinin əyani ifadəsidir və ərazi bütövlüyü ideyasının ümummilli ideyaya çevrildiyini təsdiq edir. Dərsliklərdə, tədqiqat əsərlərində, bədii ədəbiyyatda aprel döyüşlərinin real əks-sədasını tapması, obyektiv qiymətini alması üçün ciddi işlər həyata keçirilməlidir. Bu istiqamətdə elmi və ədəbi mühitdə proseslərin getdiyi artıq müşahidə olunur. Aprel zəfəri Böyük Qələbənin paroludur. Qazanılmış yüksəkliklər Zəfər gününün reallığına böyük inam hissləri ilə baxmağa əsas verir.

***- Qarşıdan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. İsa müəllim, bu günün tarixi ilə bağlı fikirlərinizi öyrənmək qəzetimizin oxucuları üçün çox maraqlı olardı.***

- Xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri kimi 16 dekabr 1991-ci il tarixdə imzaladığı "Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nün qeyd edilməsi haqqındakı fərman ölkəmizdə azərbaycançılıq məfkurəsinin dövlət ideologiyasına çevrilməsi ideyasının ilkin bünövrəsi, möhkəm siyasi təminatıdır. Müstəqillik dövrünün başlanğıcında verilmiş bu fərmanla "Dünya azərbaycanlıları" anlayışı real olaraq meydana çıxmışdır. Azərbaycan diasporası ideyasının ölkəmizin müstəqil dövlətçilik strategiyasında əsas yer tutmasında da Heydər Əliyevin imzaladığı fərman böyük tarixi əhəmiyyətə malikdir.

Hər il dünyanın müxtəlif ölkələrində böyük təntənə ilə qeyd olunan Dünya Azərbaycanlılarının Həmrəylik Günü xalqımızın milli-mənəvi və siyasi-ideoloji birliyinin daha da möhkəmləndirilməsinə xidmət edir.

***- Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu yaxınlarda elm və ədəbi mühitimizin bir qrup nümayəndəsi ilə görüşdü. Bu görüş hansı məqamlarla yaddaqalan oldu?***

- Azərbaycanın yaradıcı ziyalıları ilə ordu arasında həmişə əlaqə olmuşdur. Şair və yazıçılarımız, incəsənət nümayəndələri, elm adamları daim əsgərlər və zabitlərlə görüşmüş, müxtəlif tədbirlər həyata keçirmişlər. Lakin bu mühüm iş ilk dəfə olaraq 27 oktyabr 2016-cı il tarixdə Azərbaycan Respublikası Müdafiə Nazirliyində ordu rəhbərliyi səviyyəsində gerçəkləşdirilmişdir.

Bu, ordu ilə ziyalılar arasındakı birlik və əməkdaşlığın əsaslı şəkildə yenidən qurulması istiqamətində atılmış yeni və mühüm addımdır. Görüş zamanı Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ölkəmizdə müasir ordu quruculuğu və mövcud hərbi vəziyyət haqqındakı çıxışı Ali Baş Komandanın apardığı müdrik və qətiyyətli siyasətə sədaqətlə və əməli işlə cavab verməyin real faktlar əsasında ifadə edilməsi mənasında çox əhəmiyyətli oldu. Azərbaycan ziyalıları ilk dəfə idi ki, ordu haqqında yüksək səviyyəli səmimi bir dialoqda iştirak edirdi. Ziyalı borcunun ifadə olunması baxımından da həmin görüş tarixi bir hadisə idi. Artıq bu görüş zamanı səslənmiş Azərbaycan Ordusunda kitabxana yaratmaq təşəbbüsü ətrafında yazıçılar və alimlər səfərbər olmuşlar.

İnanıram ki, baş tutmuş dialoq vətənpərvərlik ruhunda yeni-yeni əsərləri meydana çıxaracaqdır. Eyni zamanda ordumuzun keçdiyi şərəfli yolun çətinliklərini, məsuliyyət və şərəfini əks etdirən filmlərə, yeni əsgər mahnılarına ciddi ehtiyac vardır. Müxtəlif qoşun növləri üçün hərbi marşların yazılması da zamanın tələbidir. Yaradıcı ziyalıların müntəzəm olaraq döyüş bölgələrində görüşlərini keçirmək də fayda verər.

***- Söhbətimizi ənənəvi bir sualla tamamlamaq istərdim: ordumuzun əsgər və zabitlərinə arzu və istəkləriniz...***

- Vətənə dərin məhəbbət, Ali Baş Komandana sədaqət və yalnız Qələbə!

***- Səmimi və maraqlı söhbətinizə görə çox sağ olun.***

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**